

# MADDİ VƏ MƏNƏVİ SƏRVƏTLƏR MƏBƏDİMİZ

*Milli ənənələrimizin nə qədər dəyərli olduğunu dünyaya gələn yeni nəsillərə çatdırmaq və onları bu ənənələr əsasında tərbiyə etmək üçün muzeylər lazımdır.*

**Heydər ƏLİYEV**

Azərbaycan torpağının ayrılmaz, qədim elm, mədəniyyət, ədəbiyyat və incəsənət mərkəzlərindən biri olan Naxçıvan tarixi-memarlıq abidələri, muzeyləri, görkəmli şəxsiyyətləri ilə tanınan diyardır.

Naxçıvan Muxtar Respublikasında xalqımızın maddi-mənəvi sərvətlərinin mühafizə edilib saxlanıldığı və gələcək nəsillərə ərməğan edildiyi mədəniyyət müəssisələrindən biri də muzeylərdir.

40 il bundan əvvəl fəaliyyətə başlayan C.Məmmədquluzadə adına Naxçıvan ədəbiyyat muzeyi xalqımızın milli-mənəvi dəyərlərinin toplanması, elmi cəhətdən işlənməsi, yayılması, muzeyə gələn tamaşaçılara məlumat verilməsi sahəsində diqqətəlayiq işlər görmüşdür.

Böyük yazıçı, mütəfəkkir, ictimai xadim, "Molla Nəsrəddin" jurnalının yaradıcısı Cəlil Məmmədquluzadənin 100 illik yubileyinin Azərbaycanda geniş surətdə qeyd olunduğu günlərdə – 1967-ci il iyun ayının 12-də Azərbaycan hökumətinin qərarı ilə Naxçıvan şəhərində Azərbaycan Ədəbiyyatı muzeyinin açılışı oldu və muzeyə böyük Mirzə Cəlilin – Cəlil Məmmədquluzadənin adı verildi.

12 iyun 1967-ci il tarixli Muxtar Respublikamızın ali mətbuat orqanı olan "Şərq qapısı" qəzeti bütövlükdə yubilyara həsr edilmişdir. Qəzetin ilk səhifəsi "Şərqin azadlıq carçısı" baş məqaləsi ilə başlanırdı. (bax: "Şərq qapısı" qəzeti, 12 iyun 1967-ci il). Məqalədə oxuyuruq: – "Bu gün biz Cəlil Məmmədquluzadənin 100 illiyini qeyd edərkən eyni mənzərənin şahidi oluruq. Onun yazıçı, jurnalist, mütəfəkkir kimi böyüklüyü ondadır ki, O, bütün fəaliyyəti boyu öz xalqını, bütün insanlığı düşündürən, narahat edən məsələlərlə məşğul olmuşdur. Görkəmli söz ustası və böyük vətəndaş Cəlil Məmmədquluzadə öz əsərləri ilə Azərbaycan ədəbiyyatının inkişafına, ictimai dünyagörüşünün müəyyənləşməsinə çox böyük və qiymətli xidmət göstərmişdir. Azərbaycan xalqının öz böyük oğlu və sənətkarı Cəlil Məmmədquluzadəyə məhəbbəti hədsizdir..." Qəzetdə həmçinin C.Məmmədquluzadənin 100 illiyinə həsr edilmiş yubiley tədbirlərinin proqramı dərc edilmişdir. Yubiley tədbiri iştirakçıları – akademiklər Həmid Araslı, Məmməd Cəfər Cəfərov, Abbas Zamanov, xalq şairləri Süleyman Rüstəm, Balaş Azəroğlu, Mədinə Gülgün, xalq rəssamı İsmayıl Axundov, M.T.Sidqinin oğlu Məmmədhəsən Sidqi, nəvəsi Sidqi Səfərov və digər mədəniyyət, elm və ədəbiyyat xadimləri, Naxçıvan Muxtar Respublikasının yazıçı və şairləri, elm adamları, qabaqcıl ziyalıları, ictimaiyyətin və Muxtar Respublika rəhbərliyinin nümayəndələri yubiley mərasimlərində və muzeyin açılışında iştirak etmişlər.

Xalq şairi S.Rüstəmin, B.Azəroğlunun, M.Gülgünün muzeyin açılışı ilə əlaqədar rəy kitabına yazdıqları qeyddən nümunə: – "Muzey hər xalqın mədəniyyətini inkişaf etdirən bir ocaqdır. Biz Naxçıvanda Cəlil Məmmədquluzadə adına təşkil olunmuş Ədəbiyyat muzeyinin açılışında böyük iftixar hissi ilə iştirak etdik. Bu muzey böyük Mirzə Cəlilə olan məhəbbətin ifadəsidir. Bu muzeyin açılışını Naxçıvanın mədəni həyatında əlamətdar hadisə hesab edirik. Muzey doğrudan da gözəl təşkil edilmişdir. Arzumuz budur ki, muzey Mirzə Cəlilin həyatından bəhs edən materiallarla daha da zənginləşdirilsin. Bu bizim naxçıvanlı qardaşlarımızın, ümumiyyətlə hamımızın borcudur".

Naxçıvanda Azərbaycan Ədəbiyyatı muzeyinin yaradılması bütün Naxçıvan xalqı, Naxçıvanlılar üçün çox böyük əlamətdar, mədəni və tarixi hadisəyə çevrilmişdir.

Qeyd etməyi lazım bilirik ki, C.Məmmədquluzadə adına Naxçıvan Ədəbiyyat muzeyi Azərbaycan Dövlət Ədəbiyyat muzeyindən sonra ölkəmizdə yeganə muzeydir ki, geniş ekspozisiyalar, sərgilər vasitəsilə bütövlükdə özündə Azərbaycan ədəbiyyatını əks etdirir.

Naxçıvan Muxtar Respublikası rəhbərliyi tərəfindən muzey üçün uyğun bina ayrılmış, yenidənqurma, bərpa işləri aparılmış, muzey kimi fəaliyyət, xidmət göstərməsi təmin edilmişdir. Binanın giriş hissəsində, görünüşlü yerdə Cəlil Məmmədquluzadənin, Hüseyn Cavidin, Məmməd Səid Ordubadinin baralyef-heykəlləri həkk edilmişdir. Ekspozisiya üçün 6 geniş, yaraşıqlı zallardan istifadə olunur. Muzeyin fondunda, ekspozisiyalarda, ayrı-ayrı otaqlarda, kitabxanada tarixilik və elmi cəhətdən çox qiymətli eksponatlar qorunub mühafizə olunaraq nümayiş etdirilir, tamaşaçılara, muzeyə gələnlərə onlar haqqında hərtərəfli məlumatlar verilir. Hazırda muzeyin ekspozisiyasında, fondda, sərgi zallarında 19200-ə yaxın eksponat mövcuddur. Bu rəqəm 40 il bundan əvvəl muzeyin açılışında 98 ədəd olmuşdur. Muzeyin fəaliyyət göstərdiyi illər ərzində minlərlə tamaşaçıya ekskursiyalar, sərgilər, məruzələr, mühazirələr vasitəsilə muzey xidməti göstərilmişdir.

Ekspozisiyanın ilk zalında Qobustan qayaüstü rəsmləri, Gəmiqaya rəsmləri, "Kitabi-Dədə Qorqud" dastanı haqqında kitablar, məqalələr, dastana çəkilmiş rəngli qrafik illüstrasiyalar, fotolar əks olunmuşdur. Bu zalda böyük Nizaminin, Füzulinin, Xaqaninin, Məhsəti xanımın, Nəsiminin, Xətainin, Vaqifin, Vidadinin, Aşıq Ələsgərin yaradıcılığı, onların külliyyatları, əsərlərinə çəkilmiş illüstrasiyalardan nümunələr nümayiş etdirilir.

XIX əsr Azərbaycan ədəbiyyatının görkəmli mütəfəkkir, yazıçı və şairləri M.F.Axundov, A.A.Bakıxanov, Q.B.Zakır, M.Ş.Vazeh, S.Ə.Şirvani, N.B.Vəzirov, N.B.Zərdabi, Natəvan, Qonçabəyim, Heyran xanımın həyatı, yaradıcılığı haqqında materiallar, eksponatlar ekspozisiyanın 2-ci zalında əks olunmuşdur.

Molla Nəsrəddinçilərə həsr edilmiş ekspozisiyanın 3-cü zalında C.Məmmədquluzadə, Həmidə xanım Məmmədquluzadə, Ö.F.Nemanzadə, M.Ə.Sabir, Ə.Qəmküsar, Ə.Nəzmi, Ə.B.Haqverdiyev, M.Şahtaxtlı, O.İ.Şmerlinq, İ.Rotter, Ə.Əzimzadə, İ.Axundov, M.Ə.Möcüz, "Molla Nəsrəddin" jurnalının orijinal nömrələrindən nümunələr, Mirzə Cəlilin xatirə əşyaları, sevdiyi və oxuduğu klassiklərin, tədqiqatçılarının, naxçıvanlı müasirlərinin haqqında ətraflı məlumat almaq olar.

Ekspozisiyanın 4-cü zalı ədəbiyyatımızın görkəmli klassikləri – H.Cavid, M.Hadi, A.Səhhət, A.İldırım, N.Nərimanov, Y.V.Çəmənzəminli, S.Mümtaz, Ə.Cavad, M.Müşfiq, S.Hüseyn və başqalarına həsr edilmiş ekspozisiyalar, tarixi sənədlər, fotolar vasitəsilə tamaşaçıları tanış edir.

XX əsr Azərbaycan Ədəbiyyatının və mədəniyyətinin tanınmış nümayəndələri M.S.Ordubadi, C.Cabbarlı, S.Vurğun, Ü.Hacıbəyov, A.Şaiq, S.S.Axundov, Ə.Vahid, M.H.Şəhriyara həsr edilmiş guşələr diqqəti cəlb edir. Ekspozisiyanın bu zalında-5-ci zalda qardaş türk ədəbiyyatı, onun görkəmli nümayəndələrinin əsərləri nümayiş etdirilir. Eləcə də Türk Cumhuriyyətinin yaradıcısı Mustafa Kamal Atatürkün, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Portretləri, "Biz bir millət, iki dövlətik" – başlıqlı sərgi tərtib edilmişdir.

XX əsr və müasir Azərbaycan Ədəbiyyatının, mədəniyyətinin, elminin görkəmli simaları, yazıçı və şairləri, eləcə də Naxçıvanda yaşayıb-yaradan yaradıcı ziyalılara, elm adamlarına həsr edilmiş



*Qədim çap əsərlərindən - kitablardan nümunələr*




Mədəni-maarif · 9 · 2007



*Ümummilli liderimiz Heydər Əliyevə həsr edilmiş guşə*

ekspozisiyalar 6-cı zalda yerləşdirilmişdir.

Ekspozisiyanın zallarında, eləcə də fondda Azərbaycanın görkəmli təsviri sənət xadimlərinin, rəssamların, heykəltəraşların zəngin yaradıcılığını əks etdirən eksponatlar nümayiş etdirilir.

Ekspozisiyanın görkəmli yerində xalqımızın ümummilli lideri, müstəqil Azərbaycan Respublikamızın yaradıcısı və qurucusu Heydər Əliyevə həsr edilən, zəngin materiallarla tərtib edilmiş guşə muzeyə daxil olan tamaşaçıların maraqla baxdığı guşələrdəndir. Burada Heydər Əliyevin müxtəlif illərdə nəşr olunmuş kitabları, jurnal, qəzet materialları, həmçinin onun haqqında yazılan əsərlər – kitablar nəfis tərtibatla nümayiş etdirilir. Xüsusilə "Heydər Əliyev və muzeylərimiz" sərgi-ekspozisiya ümummilli liderimizin Naxçıvanda muzey quruculuğuna aid materiallar əsasında təşkil edilmişdir. Maraqlı eksponatlardan biri də Heydər Əliyevin 1974-cü ildə Ədəbiyyat muzeyini ziyarət edərkən çəkilmiş geniş formatlı fotodur. Bu foto sərgidə əziz bir xatirə kimi nümayiş etdirilir.

Ekspozisiyanın digər bir guşəsi "Torpaq uğrunda ölən varsa vətəndir" mövzusuna həsr edilmişdir. Bu guşədə xalqımızın azadlığı və torpaqlarımızın müdafiəsi uğrunda şəhid olmuş mərd və qəhrəman övladlarımız haqqında materiallar-fotolar, mətnlər, kitab, qəzet nüsxələri əsasında tərtib edilmişdir.

Muzey əməkdaşları muzeydə saxlanılan və nümayiş etdirilən eksponatlara yüksək qayğı ilə yanaşır, muzey təlimatına uyğun onların mühafizə olunmasını təmin edir, muzeyə gələnlərə ekskursiyalar, söhbətlər vasitəsilə ətraflı bilgilər verirlər. Çünki xalqımızın maddi və mənəvi dəyərlərinin, çatdırılması hər bir muzey əməkdaşının gündəlik fəaliyyətinin, peşəsinin əsasını təşkil edir.

Cəlil Məmmədquluzadənin ədəbi-bədii, ictimai-siyasi fəaliyyətinin geniş auditoriya tərəfindən öyrənilməsi məqsədilə muzeydə 1986-cı ildən fəaliyyət göstərən "Mirzə Cəlil lektoriyası"nın məşğələləri daha maraqlı təşkil edilir. Vaxtı ilə lektoriyanın məşğələlərində akademik Abbas Zamanov, "Molla Nəsrəddin"çi Qulam Məmmədli, xalq yazıçıları Anar Rzayev, Əkrəm Əylişli, akademik Məmməd Cəfər, teatrşünas Cabir Səfərov, ədəbiyyatşünas alim Lətif Hüseynzadə, akademik İsa Həbibbəyli, xalq yazıçısı Hüseyn İbrahimov, ədəbiyyatşünas alim Yavuz Axundlu və başqaları müxtəlif mövzularda məruzələrlə, mühazirələrlə çıxışlar etmişlər.

Muzey tərəfindən keçirilən elmi-bədii, kütləvi tədbirlərin muzeydə və muzeydənkənar, ali və orta ixtisas təhsili müəssisələrində, orta məktəblərdə, mədəni-maarif müəssisələrində və başqa müəssisələrdə əyaniliyinə daha çox diqqət yetirilir, daimi və səyyari sərgilər, ekspozisiyalar, ekskursiyalar və b. kütləvi formalardan istifadə olunur. Elmi-metodiki və nəşriyyat işi sahəsində də tədbirlər həyata keçirilir. "Heydər Əliyev muzeylərimizin yaradıcısı və memarıdır", "Naxçıvanda Cəlil Məmmədquluzadə muzeyləri", "Muzeylər elm və mədəniyyət toplusudur", "C.Məmmədquluzadə adına Naxçıvan MR Ədəbiyyat muzeyi" kitabları, məlumat-bələdçilər çap etdirilmişdir. Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyat Muzeyinin elmi əsərlərində, "Qobustan", "Mədəni-maarif" jurnallarında, "Ədəbiyyat", "Mədəniyyət", "Azərbaycan Mədəniyyəti və incəsənəti", "Şərq qapısı", "Nuh yurdu" qəzet və mətbuat səhifələrində muzey əməkdaşlarının elmi-metodiki yazıları dərc etdirilmişdir.

Oxucular üçün maraqlı olduğunu nəzərə alaraq elm, mədəniyyət, incəsənət xadimləri, ədəbiyyatşünas alimlərin, yazıçı və şairlərin muzeyə yazdıqları məktublardan və rəy kitabında qeydlərindən bir neçəsini yazmağı lazım bilirik.

***"Bizim müdrik Mirzə Cəlil sağ olsaydı deyərdi: –"Qədirşünaslıq çox yaxşı şeydir... sağ olun, birinizin qədrini bilin".***

**Məmməd Cəfər**

***"Muzey gözəldir, sağ olsun onun təşkilatçıları. Bu muzey Mirzə Cəlil üçün ən yaxşı hədiyyədir".***

**Abbas Zamanov**

***"Böyük yazıçı və mütəfəkkirimiz C.Məmmədquluzadə adına Naxçıvan Ədəbiyyat muzeyini eşqlə təşkil edib düzəldənlərə eşq olsun".***

**Əziz Şərif**

***"Naxçıvanın həqiqi ədəbiyyat pərəstişkarlarının doğma, müqəddəs evi, mənəvi sərvətlərimizin Naxçıvandakı yeganə xəzinəsi olan, böyük Mirzə Cəlilin adını daşıyan muzeyimiz bu dəfə də gözümüzə təzə dəydi, zəngin göründü..."***

**İsa Həbibbəyli**

***"75 illik yubileyim və "Şöhrət" ordeni ilə təltif olunmağım münasibətilə teatrın binasında təşkil etdiyiniz sərgiyə, muzeydə mühafizə olunan eksponatların elmi-kataloqunu hazırladığına görə sizə – S.Kəngərliyə, baş fond mühafizi X.İsmayılovaya, böyük elmi işçi F.Hüseynovaya təşəkkürümü bildirirəm. Çox sağ olun!"***

**Hüseyn İbrahimov**

***"Sizə məsləhətim budur ki, mənim "Molla Nəsrəddin" adlı kitabımı diqqətlə oxuyun. Orada Mirzə Cəlilə, "Molla Nəsrəddin" jurnalına aid yüzlərlə sənəd var. Onlardan istifadə edib muzeyi daha da zənginləşdirmək olar".***

**Qulam Məmmədli**

***"Dahi Azərbaycan sənətkarı C.Məmmədquluzadənin adını daşıyan Naxçıvan ədəbiyyat muzeyi böyük yazıçının adına layiq gözəl bir muzeydir. Eksponatlar Azərbaycan ədəbiyyatının görkəmli şəxsiyyətlərinin yaradıcılığından söhbər açır. Muzey işçilərinin zəhməti təqdirəlayiqdir. Onlara yeni uğurlar arzulayıram".***

**Turan Cavid**



*Xalq şairi Səməd Vurğunun 100 illiyinə həsr edilmiş guşə və "poeziya saatı" tədbirindən nümunə*

***"Olduqca gözəl təşəbbüsdür. Son dərəcə sevindirici haldır ki, burada, Azərbaycanın qədim və gözəl bir guşəsində mədəniyyətimizin belə mənalı bir xəzinəsi yaradılmışdır. Bu balaca binanın divarları da onu yaratmış adamların məhəbbəti və ruh yüksəkliyi ilə nəfəs alır. Sağ olun dostlar".***

**Mirzə İbrahimov**

Mövcud olduğu 40 il ərzində muzey və onun əməkdaşları Azərbaycan hökuməti və Naxçıvan Muxtar Respublika rəhbərliyi tərəfindən daim diqqət və qayğı ilə əhatə olunmuş, muzeyin maddi-texniki bazasının möhkəmləndirilməsi, yeni eksponatlar hesabına daha da zənginləşdirilməsi diqqət mərkəzində saxlanılmışdır. Muzey əməkdaşlarının səmərəli fəaliyyəti, xidmətləri layiqincə qiymətləndirilmiş, 2 nəfər muzey işçisinə Azərbaycan Respublikasının, 2 nəfərə isə Naxçıvan Muxtar Respublikasının "Əməkdar Mədəniyyət İşçisi" fəxri adları verilmişdir.

Bu yazıda əsas məqsədimiz C.Məmmədquluzadə adına Naxçıvan MR Ədəbiyyat Muzeyinin keçdiyi 40 illik fəaliyyətinə qısa nəzər salmaq, oxucuları və muzeylə maraqlananları tanış etməkdir.

**Sübhi KƏNGƏRLİ,**
**muzeyin direktoru,**
**Xanım İSMAYILOVA,**
**muzeyin baş fond mühafizi,**
**Naxçıvan Muxtar Respublikasının**
**Əməkdar Mədəniyyət işçiləri**